**Quluzadə, Leyla**. Ölümsüzlüyə qovuşan şirin səsli qəhrəman / L. Quluzadə // Azərbaycan : qəzet. - 2020. - 9 dekabr. - **№ 258**. - S. 8.

*Keçdi xəyalından o gözəl yurdu,*

*Gedişi dillərdə bir dastan oldu.*

Çoxunuz bəlkə də bildiniz ki, kimdən bəhs edəcəyəm. Bəli, Xudaya yar olan Xudayar Yusifazadədən. Mən Xudayarı müharibədən öncə tanımırdım. Bu müharibə mənə qəhrəmanla bir məktəbdə (Bərdə şəhəri T.İsmayılov adına 1 nömrəli məktəb) oxuduğumun qürurunu, heyif ki, onu həmin vaxt tanımadığımın kədərini yaşatdı.

Eşitdiklərimdən onu deyə bilərəm ki, Xudayar qəlbindəki vətən, xalq sevgisi ilə, qəhrəmanlıq, qalibiyyət, intiqam amalı ilə Vətən müharibəsinə yollanmışdı. Xudayarın gözündəki intiqam hər şeyi üstələyirmiş. Onun sadəcə bir şüarı var idi: "Qarabağı alacam”. O, babasına söz vermişdi ki, "Ağdamı alacam, daha qaçqın olmayacaqsan, biz mütləq Qarabağı azad edəcəyik”. Xudayar, qardaşının dili ilə desək, Xuda sözünü tutdu. Qarabağı aldılar. Artıq babası qaçqın deyil. Ancaq bir vəd yaddan çıxmışdı, axı o, cəbhə yoldaşlarına qoç qurban kəsməyə söz vermişdi. Özü də Ağdamda. Çox təəssüf ki, bu sözünü tutmağa tale macal vermədi, şəhadətə yüksəldi. Mərd, güclü, cəsur, qorxmaz Xudayar öz qəhrəmanlığı ilə ölümün özünü belə şərəfləndirdi.

Şəhidimiz bu qısa ömrünə çox şey sığdırdı, həyatın çox üzünü gördü, çox çətinliklər çəkdi. Sonda isə bütün məqamlardan üstün olan ən ali zirvəyə qovuşdu, şəhid olub göylərə çəkildi.

*Səsləndi son dəfə yanıqlı səsi,*

*Bizi bizdən aldı şirin qəmzəsi.*

*Min kərə dinləyən, baxan hər kəsi*

*Ağlatdı, inlətdi VƏTƏN naləsi,*

*Dumanlı dağların ŞƏHİD nəğməsi.*

Gözəl günlərin başladığı, Qarabağın azad olunduğu, Qələbə paradının keçirildiyi, çöhrələrdən sevinc, gözlərdən fərəh yağdığı, bütün ölkəmizin bayram ovqatı yaşadığı xoşbəxt bir məqamdayıq. Qarabağı Azərbaycana sən və səninlə çiyin-çiyinə vuruşan, döyüşən igidlər qovuşdurdu, Xudayar! Bütün Azərbaycan sizlərə borcludur.

Kaş belə olmazdı, kaş həyatın davam edəydi, gözəl günlərin şahidi olaydın. Amma şəhidlikdən şərəfli, qürurverici məqam yoxdur. Şəhidlər ölmür, şəhidlər qəlblərdə məskən salırlar. Sən də onlar kimi bütün Azərbaycan xalqının qəlbində yuva qurdun. Yaddaşlarda həm də şirin səsinlə qaldın. Sən qəlblərdə həmişə var olacaqsan. Bizimlə birlikdə güləcəksən, sevinəcəksən. Dillərə dastan olan şəhidimiz, səni canından artıq sevdiyin doğma Azərbaycan əbədi yaşadacaq.

Sən cəsurluq, igidlik, mərdlik nümayiş etdirən Azərbaycan əsgərinin qəhrəmanlıq rəmzisən, ölümsüzlüyə qovuşan qəhrəmanım. Şəhadətin mübarək, Xudayar!

Leyla QULUZADƏ,

Bakı Dövlət Universitetinin II kurs tələbəsi